# Tanınmış geoloq alim

**Bağır Bağırov - 80**



**Mustafa BABANLI,**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor*

Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin professoru Bağır Əli oğlu Bağırovun 80 yaşı tamam olur. Bağır müəllimin keçdiyi şərəfli yol onu neft geologiyası sahəsində tanınmış alim səviyyəsinə yüksəltmişdir. Onun elmi nailiyyətləri dünya geoloji elminin inkişafına dəyərli töhfələr vermişdir.

Bağır Əli oğlu Bağırov 1936-cı ildə Azərbaycan Respublikasının Masallı rayonunda müəllim ailəsində anadan olmuşdur. O, 1953-cü ildə Masallı şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1958-ci ildə təhsilini başa çatdırdıqdan sonra "Leninneft" Neft və Qazçıxarma İdarəsinə işə göndərilmişdir. Burada o, operator, geoloq və böyük geoloq vəzifələrində çalışmışdır. İstehsalat ilə geniş tanışlıq nəticəsində B.Bağırov səriştəli mədən geoloqu səviyyəsini fəth etmiş, 1968-ci ildə istehsalatdan ayrılmadan geologiya-mineralogiya elmləri namizədi dissertasiyasını müdafiə etmişdir.

B.Ə.Bağırov 1969-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutuna işə qəbul edilmiş və ardıcıl olaraq kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya və şöbə müdiri, direktorun elmi işlər üzrə müavini vəzifələrində çalışmışdır. Akademiya mühitində apardığı fundamental tədqiqatlar Bağır müəllimin qısa müddətdə neft geologiyası sahəsində tanınmasına gətirmişdir. Məhz bu dövrdə, 1984-cü ildə, o, Moskvada İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetində doktorluq dissertasiyasını müdafiə etmiş, 1990-cı ildə professor elmi adı almışdır.

1989-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-qaz mədən geologiyası kafedrasını təsis etmiş və onun ilk müdiri seçilmişdir. Bu vəzifəni o, 2016-cı ilə kimi icra etmişdir. Hazırda kafedranın professor-məsləhətçi vəzifəsində çalışan alim gənc kadrların hazırlanması işinə öz töhfəsini verir.

2001-ci ildə B.Bağırov Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Elm və təhsil sahəsində Bağır müəllim böyük nailiyyətlər əldə etmişdir. Onun elmi tədqiqatlarının əsas istiqaməti neft və qaz yataqlarının effektiv işlənilməsini təmin edən etibarlı geoloji əsasların yaradılması ilə əlaqədardır. Geologiya elminin riyaziləşdirmə yolunu əsas götürən bu tədqiqatların sayəsində o, neft-qaz elmində yeni istiqamət yaratmışdır. Onun elmi nailiyyətlərinin böyük hissəsi keçmiş SSRİ və Azərbaycan Elmlər Akademiyalarının ən mühüm nəticələri sırasına daxil edilmiş və respublikamızın karbohidrogen yataqlarında tətbiq olunmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, Bağır müəllimin yaratdığı geoloji-riyazi modellər keçmiş SSRİ-nin bir sıra elmi-tədqiqat laboratoriya və institutlarında tətbiq edilmişdir.

B.Bağırovun fundamental və tətbiqi xarakterli tədqiqatları çap olunmuş 300-dən artıq elmi işdə öz əksini tapmışdır. Bunların arasında 6 monoqrafiya (o cümlədən biri ingilis dilində), 70-dən artıq metodik və tədris vəsaiti vardır. O, dünyanın müxtəlif ölkələrində keçirilən 10-dan artıq beynəlxalq konqres və simpoziumlarda elmi məruzələr etmişdir.

B.Bağırov mühəndis və yüksək ixtisaslı kadrların hazırlanmasında səylərini əsirgəmir. Onun kafedraya rəhbərlik etdiyi 30 ilədək müddət ərzində burada müəllim-tələbə münasibətləri ən yüksək səviyyədə olmuş, məzunların böyük əksəriyyəti respublikanın və eləcə də dünyanın aparıcı neft-qazçıxarma şirkətlərində fəaliyyət göstərmiş, respublikamızın yüksək ixtisaslı neft-qaz kadrları yetişdirən ölkə kimi şöhrəti daha da artmışdır.

O, indiyədək yüzlərlə mühəndis, magistr, bakalavr, 15 elmlər namizədi və doktoru yetişdirmiş, hazırda isə 4 doktoranta rəhbərlik edir. Bağır Bağırov dəfələrlə Amerika Neftçi Geoloqlar Cəmiyyətinin və Avropa Geoloqlar və Mühəndislər Birliyinin üzvü seçilmişdir. Hazırda Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin prezidentidir.

Professor B.Ə.Bağırov uzun müddət universitetin nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış şuranın sədri və Milli Elmlər Akademiyasının bir sıra institutlarının elmi şuralarının üzvü, Azərbaycan Dövlət Neft Şirkətinin elmi-texniki şurasının üzvü seçilmişdir. O "Azərbaycan geoloqu" jurnalının baş redaktoru, "AMEA-nın Xəbərləri" jurnalının (Yer elmləri bölməsi) redaksiya heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ali Texniki məktəblərinin Xəbərləri jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Professor B.Bağırov universitetin ictimai həyatında da aktiv iştirak edir, Yeni Azərbaycan Partiyası universitet təşkilatı idarə heyətinin üzvüdür.

2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Azərbaycanın əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Həyatını neft geologiyası elminə və ali təhsilin inkişafına həsr etmiş bizim həmkarımızı müəllim və tələbələr adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və Azərbaycan elmi və təhsilinin daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi nəcib fəaliyyətində yeni nailiyyətlər arzu edirəm.